# Böyük tarixi şəxsiyyət Heydər Əliyevin formalaşdırdığı Azərbaycan daha da güclü olacaq

**Azərbaycanın müasir tarixində Heydər Əliyev şəxsiyyəti müstəsna yer tutur. O, həm görkəmli siyasi lider, həm də müstəqilliyin, dövlətçiliyin, sabitliyin və milli birliyin simvoludur. Heydər Əliyevin hakimiyyətə gəlişi ilə Azərbaycan tarixində yeni bir mərhələ başlandı - bu mərhələ Azərbaycanın xilası, inkişafı və güclənməsi dövrüdür.**

1969-cu ilin 14 iyul günündə Azərbaycan xalqı böyük və unudulmaz bir gün yaşadı. Həmin gün Ulu Öndər Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Birinci katibi seçildi, O dövrdə sənaye, kənd təsərrüfatı, təhsil və mədəniyyət sahələrində gerilik hökm sürürdü. Lakin Heydər Əliyev hakimiyyətə gələn andan etibarən məqsədyönlü islahatlar həyata keçirilməyə başlandı. Onun uzaqgörən siyasəti nəticəsində Azərbaycan qısa müddətdə keçmiş SSRİ miqyasında ən qabaqcıl respublikalardan birinə çevrildi.

Hakimiyyətə gəldiyi ilk günlərdən Ulu Öndər həyati əhəmiyyət kəsb edən bütün sahələrdə yüksəkixtisaslı kadrların yetişdirilib hazırlanmasına böyük diqqət və qayğı göstərdi. Bu kadrların böyük əksəriyyətini respublikanın özündə hazırlamaq məqsədilə Heydər Əliyev ali və orta ixtisas müəssisələrinin maddi-texniki bazasını möhkəmləndirdi. Ümummilli liderimizin hakimiyyətinin birinci dövründə ali məktəblərdə 100-dən artıq ixtisas açıldı, 6 yeni ali məktəb, 12 orta ixtisas məktəbi yaradıldı. Həmin dövrdə keçmiş SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox ən nüfuzlu ali məktəblərində respublikamızın xalq təsərrüfatı, elm, təhsil və mədəniyyətinin 80-dən artıq sahəsini əhatə edən və ən zəruri ehtiyac duyulan 250 ixtisas üzrə 15 mindən çox azərbaycanlı gənc ali təhsil aldı. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü və gərgin əməyi, səyi nəticəsində Cəmşid Naxçıvanski adına Hərbi Məktəbin açılması Azərbaycanın həyatında çox mühüm bir hadisə oldu. 1976-1982-ci illərdə yüzlərlə azərbaycanlı gənc Sovetlər Birliyinin müxtəlif respublikalarında yerləşən 54 ən qabaqcıl ali hərbi məktəblərə və akademiyalara hərbi təhsil almağa göndərilib, milli kadrların hazırlanması problemi öz uğurlu həllini tapıb. Ümummilli Liderimizin 70-ci illərdə başladığı hərbi quruculuq prosesi ikinci dəfə müstəqillik qazanan Azərbaycan Silahlı Qüvvələrinin zabit heyətinin formalaşmasında müstəsna rol oynayıb.

Həmin dövrdə bütün yaşayış məntəqələrində əhalinin mənzil-məişət şəraiti kökündən yaxşılaşdırıldı. Hazırlanan strateji proqrama əsasən 1970-ci illərdə bütün Azərbaycan əzəmətli tikinti meydanına çevrildi. Ümumiyyətlə, ölkənin hər yerində infrastruktur yaradıldı, yeni xidmət sahələri açıldı. Ulu Öndər hələ o illərdə Azərbaycanın gələcəyini hesablayır, bugününü qururdu. Azərbaycanın hər bir yerində nəhəng layihələr, yenidənqurma işləri həyata keçirildi.

1991-ci ildə Azərbaycan öz dövlət müstəqilliyini bərpa etsə də, bu, arzulanan azadlıqla yanaşı, bir sıra ağır sınaqları da özü ilə gətirdi. Müstəqillikdən sonra ölkə daxilində ciddi siyasi çəkişmələr başladı. Dövlət idarəçiliyi səriştəsiz insanların əlinə keçdi, müharibə şəraitində olan bir ölkənin möhkəm və çevik idarə olunması mümkün olmadı. Ermənistanla müharibədə Azərbaycan ard-arda torpaq itkilərinə məruz qaldı. Orduda vahid komandanlıq yox idi. İqtisadi həyat iflic vəziyyətə düşmüşdü. Əhalidə dövlətə inam dəmək olar ki, tamamilə sarsılmışdı.

Bu problemlərə 1993-cü ilin iyununda baş verən Gəncə hadisələri, silahlı dəstələrin Bakıya yürüşü, qardaş qırğını təhlükəsi əlavə olundu. Vəziyyət o qədər gərgin idi ki, Azərbaycanın parçalanması, vətəndaş müharibəsi labüd görünürdü. Belə bir şəraitdə xalqın nəzərləri Heydər Əliyevə yönəldi. Çünki insanlar bu fəlakətdən yalnız onun sayəsində qurtuluş tapacağına inanırdılar.

Heydər Əliyev artıq həmin vaxt siyasi təcrübəsi, dövlətçilik fəlsəfəsi və xalq arasında qazandığı nüfuzla seçilirdi. Onun sovet dövründə Azərbaycana rəhbərlik etdiyi illər xalqın yaddaşında sabitlik, inkişaf və tərəqqi dövrü kimi qalmışdı. Naxçıvan Ali Məclisinin Sədri kimi fəaliyyəti dövründə də o, milli maraqları müdafiə edərək xalqın etimadını daha da möhkəmləndirmişdi. Buna görə də xalq bir nəfər kimi onun yenidən ölkəyə rəhbərlik etməsini tələb edirdi.

1993-cü ilin iyulunda Heydər Əliyev Azərbaycan Ali Sovetinin sədri seçildi, qısa müddət sonra isə Azərbaycan Respublikasının Prezidenti səlahiyyətlərini öz üzərinə götürdü. Bu andan etibarən ölkənin həyatında tamamilə yeni, sabitlik və inkişafla dolu bir mərhələ başlandı.

Heydər Əliyev ilk növbədə daxili sabitliyin təmin olunmasına yönəlmiş addımlar atdı. Silahlı birləşmələr tərkisilah olundu, dövlət çevrilişi təhlükələri aradan qaldırıldı. Dövlət orqanlarında islahatlara başlandı, hüquq-mühafizə sistemində ciddi dəyişikliklər edildi. Xalqla birbaşa ünsiyyət, xalqın içində olmaq, onların dərdini dinləmək Heydər Əliyevin rəhbərlik üslubunun əsas xüsusiyyətlərindən biri oldu və xalqın Prezidenti seçildi.

1994-cü ildə ölkədə atəşkəsə nail olunması, insan qırğınına qarşısının alınması, müharibənin müvəqqəti də olsa dayandırılması da məhz onun qətiyyəti sayəsində mümkün oldu. Bu, ordunun yenidən qurulması və ölkənin müdafiə gücünün artırılması üçün imkan yaratdı.

Heydər Əliyevin ən böyük uğurlarından biri də onun həyata keçirdiyi "neft strategiyası" oldu. 1994-cü il 20 sentyabr tarixində imzalanmış "Əsrin müqaviləsi" Azərbaycanın dünya enerji bazarına inteqrasiyasını təmin etdi. Bu, təkcə neft ixracı deyil, həm də ölkəyə milyardlarla dollar investisiyanın cəlb edilməsi, yeni iş yerlərinin açılması, infrastrukturun bərpası və sosial rifahın yaxşılaşması demək idi. Azərbaycanın iqtisadi müstəqilliyi məhz bu müqavilədən sonra güclənməyə başladı. Sonrakı dövrdə Ulu Öndərin təşəbbüsü və rəhbərliyi ilə qədim İpək Yolunun bərpasına, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərlərinin çəkilişinə başlanıldı. Prezident İlham Əliyevin hakimiyyəti dövründə bu transmilli layihələrə Çini Avropa ilə birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu, Azərbaycan qazını Avropaya çatdıran Cənub Qaz Dəhlizi əlavə edildi.

Neftdən gələn gəlirlər ölkənin müdafiəsinə, təhsilinə, səhiyyəsinə, sosial sahələrə yönəldildi. Regionların inkişafı üçün proqramlar hazırlandı. Sürətlə abadlaşan şəhərlər, bərpa olunan kəndlər, təmir edilən yollar və körpülər - bunların hamısının kökündə Heydər Əliyevin iqtisadi inkişaf modeli dayanırdı.

Heydər Əliyevin hakimiyyəti dövründə ölkədə hüquqi dövlət quruculuğuna xüsusi önəm verildi. 1995-ci ildə ümumxalq səsverməsi ilə qəbul olunan Konstitusiya müstəqil Azərbaycanın ilk əsas qanunu oldu. Qanunverici, icraedici və məhkəmə hakimiyyətinin ayrılması, insan hüquq və azadlıqlarının təmin olunması, demokratik seçki institutlarının formalaşdırılması bu Konstitusiyanın əsas prinsipləri idi. Eyni zamanda, hüquqi islahatlar, məhkəmə sisteminin yenidən təşkili və şəffaf idarəçilik istiqamətində mühüm addımlar atıldı.

Dahi şəxsiyyət Heydər Əliyev xarici siyasətdə də balanslı və milli maraqlara əsaslanan kurs yürüdürdü. Azərbaycanın həm Qərb, həm də Şərq dövlətləri ilə bərabərhüquqlu münasibətlər qurması, beynəlxalq təşkilatlarda fəal iştirakı və tərəfdaşlıq əlaqələrinin genişlənməsi onun diplomatik bacarığının nəticəsi idi. Xüsusilə Avropa İttifaqı, NATO ilə tərəfdaşlıq, İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı kimi qurumlarla əməkdaşlıq Azərbaycanın beynəlxalq aləmdə nüfuzunu artırdı.

Ulu Öndər həm də strateq idi. Azərbaycanın gələcəyini, sabahını düşünərək planlar qururdu. Gənclərin təhsilinə, milli-mənəvi dəyərlərin qorunmasına, Azərbaycanın mədəni irsinin yaşadılmasına böyük önəm verirdi. Gəncləri Azərbaycanın sabahı kimi dəyərləndirərək, onların xaricdə təhsil almasına şərait yaradırdı. Gənclərin bütün sahələrdə bugünkü uğurları məhz o düşünülmüş siyasətin nəticəsidir.

Ulu Öndər Heydər Əliyevin siyasi irsi yalnız praktiki addımlarla məhdudlaşmır, o həm də milli ideologiyanın - azərbaycançılıq məfkurəsinin banisidir. Bu ideologiya Azərbaycanın milli birliyini, müxtəlif etnik və dini qrupların harmonik vəhdətini təmin edən bir düşüncə sistemidir. Azərbaycançılıq ideologiyası bu gün də ölkənin strateji istiqamətini müəyyənləşdirən əsas ideya kimi qəbul olunur.

Heydər Əliyevin əsas xidmətlərindən biri də güclü siyasi varislik sistemini formalaşdırmaq və dövlətçiliyin davamlılığını təmin etmək idi. Onun siyasətini uğurla davam etdirən Prezident İlham Əliyev bu gün Ulu Öndərin müəyyən etdiyi strateji kurs əsasında Azərbaycanın inkişafını daha da irəli aparır. Prezident İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ildə Qarabağ Zəfəri bu varisliyin nə qədər möhkəm və uğurlu olduğunu göstərdi. Bu Zəfər Heydər Əliyevin "Dağlıq Qarabağ münaqişəsinin həlli Azərbaycanın əsas milli məsələsidir" fikrinin reallaşması idi.

Heydər Əliyevin hakimiyyətə gəlişi Azərbaycan üçün tarixi dönüş nöqtəsi oldu. Onun formalaşdırdığı sabitlik, güclü dövlətçilik ənənəsi və strateji inkişaf kursu bu gün müstəqil Azərbaycanın təməl sütunlarını təşkil edir. Azərbaycan xalqı Ulu Öndərin ideyaları əsasında daha güclü və firavan gələcək qurmağa davam edəcək. Bu həm də 14 iyulun qüdrətidir!.. Çünki bu güc iqtisadi və hərbi sahələrdə, həm də milli birlik, vətən sevgisi və dövlətçilik iradəsində əks olunur.

**Səbinə XASAYEVA,**
**Milli Məclisin deputatı.**